2019.- 19 iyun.- S.22



# Azərbaycanda yeni turizm mövsümü başlayır

Ölkəmizdə turizm sektorunda aparılan islahatlar, bu sahə ilə bağlı keçirilən beynəlxalq tədbirlər, dünyanın müxtəlif yerlərində təşkil olunan sərgilər Azərbaycanın dünyada tanıdılmasına xidmət edir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, turizm sahəsinin inkişafı son illərdə prioritet istiqamətlərdən birinə çevrilib. Zəngin tarixi-mədəni irsə və əlverişli təbii şəraitə malik ölkəmizdə turizmin kənd, müalicə-sağlamlıq, ekoloji, mədəni, sosial, kommersiya, idman və digər növləri ilə bağlı fəaliyyəti daha da genişləndirilib. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza verilməsi prosedurunun sadələşdirilməsi, müasir informasiya texnologiyalarından istifadə etməklə “ASAN Viza” sisteminin tətbiqi nəticəsində Azərbaycana turizm məqsədilə gələn xarici ölkə vətəndaşlarına və vətəndaşlığı olmayan şəxslərə 30 günlük birdəfəlik elektron vizanın 3 iş günü müddətində, eləcə də elektron vizanın sürətləndirilmiş qaydada alınması ilə bağlı müraciət edildikdə 3 saat ərzində təcili vizanın verilməsi həyata keçirilir. Həmçinin 2016-cı ildən etibarən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün Azərbaycan ərazisində alınmış, istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan istehlak mallarına “Tax-free” sisteminin tətbiqi, eləcə də 2017-ci ildən başlayaraq mütəmadi olaraq keçirilən ticarət festivalları (“Shopping festival”) ölkəyə səfər edən xarici turistlər tərəfindən məmnunluqla qarşılanır.

Görülən bu işlər ölkəmizə gələn turistlərin sayına təsirsiz ötüşməyib. Statistik məlumatlara əsasən, Azərbaycana istirahətə gələn xarici vətəndaşların sayı ilbəil artır. Belə ki, cari ilin yanvar-may aylarında ölkəmizə gələn turistlərin sayında ötən ilin müvafiq dövrünə nisbətən 3,8 faiz artım müşahidə olunub. Ən önəmli cəhətlərdən biri isə odur ki, ölkəmizə üz



tutan turistlər yalnız paytaxt Bakını görməklə kifayətlənməyərək regionlara da üz tuturlar. Hazırda bölgələrdəki turistyerləşdirmə obyektlərində böyük sıxlıq yaşanması da deyilənlərin təsdiqidir. Ölkəmizə gələn turistlər səfərləri zamanı bölgələrdəki tarixi abidələrə, maraqlı yerlərə xüsusi üstünlük verirlər. Paytaxtda və bölgələrdə yaradılan rahat yollar, dünyaca məşhur hotel brendləri, istirahət və əyləncə kompleksləri, sağlamlıq mərkəzləri müxtəlif ölkələrdən insanları Azərbaycana cəlb edir. Yaradılmış əlverişli biznes və investisiya mühiti nəticəsində hazırda ölkəmizdə müasir tələblərə uyğun qurulmuş Tufandağ və Şahdağ Qış-Yay turizm kompleksləri, Şamaxı Safari Ekoparkı, 563 mehmanxana, o cümlədən məşhur dünya brendlərinin beşulduzlu hotelləri və onlarca digər turizm obyektləri fəaliyyət göstərir.

Sağlamlıq turizmi digər turizm növlərindən bir çox cəhətlərinə görə fərqlənir. Amma ən əsas cəhətlərindən biri odur ki, belə mərkəzlər ilin bütün fəsillərində, fasiləsiz çalışır. Bu isə o deməkdir ki, bu tip turizm xidmətlərindən istifadə etmək üçün ölkəmizə turistlərin gəlməsi mövsümi xarakter daşımır. Bu cür mərkəzlərdə müasir şəraitlə təbii-müalicəvi üsulların tətbiqi həm də əvvəllər müalicə üçün xarici ölkələrə üz tutan Azərbaycan vətəndaşlarının ürəyincədir.

Son illərdə Azərbaycanda mütəmadi olaraq müxtəlif beynəlxalq idman və mədəniyyət tədbirlərinin keçirilməsi, eləcə də davamlı olaraq yeni əlverişli beynəlxalq reyslərin açılması turizmin inkişafını daha da sürətləndirir.

Dövlət dəstəyi sayəsində ölkəmizdə turizm sahəsində beynəlxalq əməkdaşlıq yeni mərhələyə qədəm qoyub. Ölkəmizdə beynəlxalq mədəniyyət tədbirləri, o cümlədən kino günlərinin böyük təntənə ilə keçirilməsi buna bariz nümunədir. Azərbaycanın ev sahibliyi etdiyi Beynəlxalq Turizm Filmləri Festivalı, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə hər il Qəbələdə təşkil olunan Beynəlxalq Musiqi Festivalı da dünyanın bu sahə üzrə nüfuzlu tədbirlərindəndir.

Beləliklə, Azərbaycan dövlətinin turizm sahəsinin inkişafı ilə bağlı qəbul etdiyi proqramlar, həyata keçirilən layihələr, bu sahəyə yatırılan investisiyalar, ölkəmizin coğrafi mövqeyi ilə yanaşı xalqımızın qonaqpərvərliyi də şübhəsiz ki, ölkəmizə gələnlərdə bura bir daha dönmək istəyi yaradır.

**Sevinc Azadi,**
***“İki sahil”***